“Təsdiq edirəm”
Azərbaycan Dövlət Pedaqoji
Universitetinin rektoru
________ prof. C.M.Cəfərov
“16” may 2022-ci il

# AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN ƏSASNAMƏSİ

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbayacan Dövlət Pedoqoji Universitetinin (ADPU) Heydər Əliyev Mərkəzi (bundan sonra – Mərkəz) Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bağlı materialları toplayan, qoruyan, sistemləşdirən, elmi cəhətdən öyrənilməsini və təbliğ olunmasını təşkil edən struktur bölməsidir.

1.2. Mərkəzin fəaliyyəti Təhsil Nazirliyinin müvafiq qərar, əmr və sərəncamlarına, ADPU-nun Nizamnaməsinə, Elmi Şuranın qərarlarına, rektorun əmr və sərəncamlarına və bu Əsasnaməyə uyğun təşkil edilir.

1.3. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən ADPU-nun dekanlıqları, kafedraları və digər struktur bölmələri, ölkənin şəhər və rayonlarında, başqa ali məktəblərdə fəaliyyət göstərən Heydər Əliyev mərkəzləri, elmi-tədqiqat, təhsil və mədəniyyət müəssisələri, müvafiq qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edir, onlarla birgə araşdırmalar aparır, tədbirlər təşkil edir.

1.4. Mərkəz ADPU-nun rektoruna tabedir, onun əmri ilə yaradılır və ya ləğv edilir.

## 2. MƏRKƏZİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

2.1. Mərkəz aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. Ümummili lider Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bağlı kitabların, məcmuələrin, fotoşəkillərin, arxiv sənədlərinin və digər eksponantların kompleksləşdirilməsi, mühafizəsi və nümayiş etdirilməsi;

2.1.2. Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin, zəngin ideya-nəzəri irsinin dərindən öyrənilməsi və geniş təbliğ edilməsi;



Scanned by TapScanner

2.1.3. Ümumilli lider Heydət Əliyevin irsinin tədqiqi və təbliği ilə bağlı aidiyyəti təşkilatlarla əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi;

2.1.4. Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş universitetdaxili, universitetlərarası, rayon və ölkə miqyaslı tədbirlərin keçirilməsi.

## 3. MƏRKƏZİN VƏZİFƏLƏRİ

3.1. Mərkəz bu Əsasnamə ilə müəyyənləşdirilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. Heydər Əliyevin dövlətçilik siyasətinin, azərbaycançılıq ideologiyasının və zəngin ideya-nəzəri irsinin araşdırılmasına xidmət edən materialların əldə edilməsini, sistemləşdirilməsini və nümayişini təşkil etmək;

3.1.2. Xüsusi əhəmiyyət kəsb edən nadir sənəd və əşyaların surətlərinin hazırlanmasını təmin etmək;

3.1.3. Mərkəzdə olan materialların müvafiq qaydada saxlanılmasını və mühafizəsini təşkil etmək;

3.1.4. Qrafik əsasında Mərkəzin nəzdində fəaliyyət göstərən muzeyi və konfrans zalını ADPU-nun və digər ali məktəblərin professor-müəllim heyəti və tələbələri, ümumtəhsil məktəblərinin müəllim və şagirdləri üçün müntəzəm olaraq açıq elan etmək;

3.1.5. Mərkəzin fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş tədbirlər görmək;

3.1.6. Mərkəzin fəaliyyət istiqamətlərinə aid olan məsələlərlə bağlı idarə, müəssisə və təşkilatlarla qurulmuş qarşılıqlı əməkdaşlıq əlaqələrini inkişaf etdirmək;

3.1.7. Mərkəzin iş planlarını hazırlamaq;

3.1.8. Mərkəzin fəaliyyətinə dair hesabatları tərtib edərək rektora təqdim etmək.

## 4. MƏRKƏZİN HÜQUQLARI

4.1. Mərkəz öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq planlar, proqramlar, yol xəritələri hazırlamaq və həyata keçirmək;

4.1.2. Mərkəzin fəaliyyətnin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq, aidiyyəti üzrə rektora və ya Elmi Şuraya təqdim etmək;

4.1.3. Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq konfrans, simpozium, dəyirmi masa, bilik yarışı, sərgi, ekspozisiya və digər tədbirlər təşkil etmək;

4.1.4. ADPU-nun dekanlıqları, kafedraları və digər struktur bölmələri, ölkənin şəhər və rayonlarında, başqa ali məktəblərdə fəaliyyət göstərən Heydər Əliyev mərkəzləri, elmi-tədqiqat, təhsil və mədəniyyət müəssisələri, müvafiq qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək, onlarla birgə araşdırmalar aparmaq, tədbirlər keçirmək;



Scanned by TapScanner

4.1.5. Mərkəzin fəaliyyətinə aid olan məsələlərlə bağlı müstəqil ekspert və mütəxəssisləri cəlb etmək;

4.1.6. Mərkəzin fəaliyyət istiqamətlərinə aid olan məsələlər barədə məlumatları (sənədləri) əldə etmək üçün rektorun adından dövlət və yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə sorğular hazırlamaq;

4.1.7. Mərkəzin maddi-texniki bazasının təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

4.1.8. Əməkdaşların fəaliyyətinin stimullaşdırılması məqsədilə rektora onların mükafatlandırılması haqqında təqdimat vermək, fərqlənənlərin həvəsləndirilməsi üçün başqa tədbirlər görmək;

4.1.9. Mərkəzin Əsasnaməsi ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. MƏRKƏZİN İDARƏ OLUNMASI

5.1. Mərkəzə ADPU rektorunun əmri ilə vəzifəyə təyin və vəzifədən azad olunan Mərkəzin müdiri rəhbərlik edir.

5.2. Mərkəzin müdiri:

– Mərkəzin işini təşkil edir və ona rəhbərlik edir;

– Mərkəzin üzərinə düşən vəzifələrin və təsdiq olunmuş iş planlarının yerinə yetirilməsini təmin etmək üçün tədbirlər görür;

– Əməkdaşlar tərəfindən əmək və daxili intizam qaydalarına riayət olunmasına nəzarət edir.

5.3. Mərkəzin əməkdaşlarını rektor vəzifəyə təyin və vəzifədən azad edir.



Scanned by TapScanner